# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Sosial-iqtisadi proseslərin idarə olunmasında elmi təminata olan ehtiyac

**Əhməd Qəşəmoğlu**
*iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA-nın Fəlsəfə İnstitutu*
**E-mail:** ahmgmm@gmail.com

**Rəyçilər:** f.ü.e.d., prof.S.Y. Hüseynov,
f.ü.e.d. Q.N. Vəliyev

**Açar sözlər:** sosial-iqtisadi, idarəetmə, elmi təminat, metodoloji baza, sistemli yanaşma
**Ключевые слова:** социально-экономический, управление, научное обеспечение, методологическая база, системный подход
**Key words:** socio-economic, management, scientific support, methodological base, system approach

Get-gedə qlobollaşmaya daha çox məruz qalan cəmiyyətlərdə sosial-iqtisadi proseslər həm məzmunca mürəkkəbləşməkdə, həm də sayca artmaqdadır. Hər bir ölkə, cəmiyyət, sosial sistem günü-gündən müxtəlif sosial-iqtisadi proseslərdən daha çox asılı vəziyyətə gəlir. Ona görə də elmin bu sahəyə diqqətini daha çox artırmasına böyük ehtiyac yaranmışdır.

İndiki dövr elmi idarə etmə dövrüdür. İndi balaca, bir mərtəbəli evi belə elmi əsaslarla tikmədikdə sonradan üzə xeyli problemlər çıxır. Məlum olur ki, hansısa mühüm bir komponentin nəzərə alınması yaddan çıxıb. Belə olan halda, böyük təşkilatların, müəssisələrin, yaşayış məntəqələrinin, ölkənin elmi metodlarla idarə olunmasına nə dərəcədə böyük ehtiyac olduğunu müəyyənləşdirmək olar. Bu ehtiyac həm də dünyadakı proseslərin get-gedə mürəkkəbləşməsi, həssaslaşması ilə artır. İndi, zamanında atılmayan addım, qəbul edilməyən qərar tez bir zamanda idarə olunan obyektdə ciddi problemlər yarada bilər.

Müstəqil dövlət quruculuğumuz üçün bu qədər mühüm olan dövrdə bizim alimlərimizin, elmimizin də öhdəsinə böyük məsuliyyət düşür. İndi ölkəmizdə müxtəlif sahələrin inkişaf etdirilməsi üçün sosial-iqtisadi inkişaf planları, inkişaf konsepsiyaları, yol xəritələri hazırlamağa diqqət günü-gündən artmaqdadır. Belə bir vəziyyətdə elmimiz ölkədə sosial-iqtisadi inkişafımızla bağlı həyata keçirilən layihələrin, böyük quruculuq işlərinin daha uğurlu, xalqımız üçün daha faydalı olması üçün əlindən gələnköməkliyi göstərməli, elmin potensialını praktikaya yönəltməlidirlər. İndi həm dəqiq elmlər sahəsində, həm də humanitar sahədə çalışan alimlərinin həqiqi elmi bazaya əsaslanan araşdırmalarına, hazırladıqları təkliflərə böyük ehtiyac vardır. Mükəmməl elmi metodlar həm daxili, həm də xarici siyasətin qurulmasında əvəzsiz köməkçi vasitədir. Ölkə daxilindəki problemlərin daha uğurlu həll edilməsinə yardım edən elm, eyni zamanda xarici siyasətin daha optimal şəkildə qurulmasına, ölkənin maraqlarının xarici ölkələrdə daha uğurla qorunmasına ciddi kömək edə bilər. Elmin bu sahədəki inkişafı eyni zamanda ölkəmizin təhlükəsizliyi baxımından da çox

əhəmiyyətlidir.

Bəzilərinin fikrincə, cəmiyyətdə baş verən proseslərə müdaxilə etmək düzgün deyildir. Hadisələr, proseslər təbii axarına buraxılsa daha təbii formalaşma gedə bilər. Amma daha təcrübəli, elm sahəsində daha nüfuzlu mütəxəssislərin demək olar ki, əksəriyyəti yer üzündə, cəmiyyətdə baş verən prosesləri başlı-başına buraxmağın, yaxud onlara bəşəriyyətin maraqlarına uyğun olmayan müdaxilələrin olmasını təhlükəli hesab edirlər. Onlara misal olaraq dövrümüzün çox məşhur iqtisadçısı, Nobel mükafatı laureatı, C. Stiqlesin və Amerikanın məşhur sosioloqu, uzun illər Amerika Sosioloqlar Cəmiyyətinə başçılıq etmiş İ. Vallerstayn əsərlərində bu münasibət aydın ifadə olunmuşdur (1,2).

XVIII-XX əsrlərdə yaranan elmi baza sosial xarakterli sistemlərin, proseslərin elmi metodların köməyi ilə idarə olunması üçün geniş imkanlar yaratmışdır. Bu elmi təminat ölkənin daxilində, cəmiyyətdə baş verən bir çox mühüm prosesləri uğurla, məqsədyönlü şəkildə idarə etməyə kömək edir. İndi bir sıra ölkələr, dünyanın güc mərkəzləri nəinki yalnız öz fəaliyyətlərinin təkmilləşməsində bu metodlardan istifadə edirlər, eyni zamanda özlərinin xarici siyasətlərinin qurulmasında, öz maraqlarının başqa ölkələrdə təmin olunmasında da həmin elmi metodlara, elmi əsaslarla hazırlanmış texnologiyalara böyük üstünlük verirlər.

Sosial-iqtisadi proseslərin idarə olunması imkanlarını yaradan əsas elmi-metodoloji baza aşağıdakı kimi elm sahələrinin inkişafı ilə formalaşmaqda, mükəmməlləşməkdə, özünü təsdiq etməkdədir. Bu sahələrə iqtisadiyyat, sosiologiya, idarəetmə, sistem nəzəriyyəsi, tətbiqi riyaziyyat, statistika, pedaqogika, psixologiya, sosial psixologiya, kompüter elmlərini, informasiya texnologiyalarını və s. aid etmək olar. Bu kimi elm sahələri inkişaf etdikcə, sosial-iqtisadi proseslərin elmi idarə olunması ilə bağlı təsəvvürlər xeyli inkişaf etdi və aparılan məxsusi elmi araşdırmalar bu sahədə konkret elmi metodların üzə çıxmasına kömək etdi. İqtisadiyyat və sosiologiya elmləri inkişaf etdikcə həm iqtisadçılar başa düşdülər ki, iqtisadi sistem sosial amilləri nəzərə almadan uğurla inkişaf edə bilməz. Həm də sosioloqlar hiss etdilər ki, iqtisadi amillər sosial münasibətlərə olduqca ciddi təsir edir.

Aydın oldu ki, əvvəl iqtisadçıların bir çoxunun iqtisadi proses kimi, sosioloqların da sosial proses kimi araşdırdıqları proseslər əslində sosial-iqtisadi proses kimi öyrənilməlidir. İdarəetmə elmi, sosial-iqtisadi proseslərə bir idarəetmə obyekti kimi baxmağa, onların idarə edilməsi sahəsindəki metodların konkretləşməsinə, spesifik tələbləri nəzərə ala bilməsinə kömək etdi. Statistika elmi, sosioloji metodlarla birlikdə sosial-iqtisadi proseslərin öyrənilməsi, idarə edilməsi üçün zəruri olan informasiyaların toplanmasına imkan yaratdı. Həm nəzəri, həm də empirik, tətbiqi sosiologiyanın inkişafı sosial-iqtisadi proseslərin öyrənilməsi, idarə edilməsi imkanlarını xeyli genişləndirdi. Sistem nəzəriyyəsinin formalaşıb üzə çıxması idarəetmə üçün olduqca vacib olan bir məsələyə - obyektin sistemli yanaşma metodları ilə təsəvvür edilməsinə, sistemli təhlilə, idarəetmə obyekti barədə daha əhatəli məlumatların alınmasına, idarəetməni sistemlilik prinsipləri əsasında qurulmasına, sosial-iqtisadi proseslərin idarə olunmasında sistem nəzəriyyəsinin imkanlarından bəhrələnməyə kömək etdi.

Tətbiqi riyaziyyat elminin inkişafı riyazi təhlillərin, riyazi modellərin köməyi ilə təhlilin və idarəetmənin səviyyəsini xeyli dərinləşdirdi və dəqiqləşdirdi; ölçmə şkalalarının yaradılması kəmiyyət dəyişənləri ilə yanaşı, sosial-iqtisadi proseslər üçün mühüm olan keyfiyyət dəyişənlərinin də ölçülməsini mümkün etdi ki, bu da irəliyə doğru mühüm addımların atılmasında ciddi rol oynadı. İnformasiya nəzəriyyəsinin inkişafı, entropiyalar – qeyri-müəyyənlik ölçüləri əsasında təhlillərə, keyfiyyət dəyişənləri arasında qarşılıqlı əlaqələrin dərindən öyrənilməsini mümkün etdi.

L. Zadənin qeyri səlis riyaziyyatla bağlı irəli sürdüyü yeni riyazi metodlar, yeni məntiqi sistem sosial-iqtisadi proseslərin idarə edilməsində əvvəllər nəzərə alınması mümkün olmayan amillərin də nəzərə alınması üçün yeni istiqamətlər müəyyənləşdirdi. Latent – gizli, müşahidə oluna bilməyən amillərin üzə çıxarılması olduqca diqqətəlayiq bir haldır. Kompüter erasının başlaması sosial-iqtisadi proseslərin idarə edilməsi işini xeyli təkmilləşdirdi. Artıq çox böyük ölçüdə informasiyaların toplanıb dərindən təhlil olunmasına şərait yarandı. İnternetin yaranması isə bu sahəni daha qabağa apardı.

Psixologiya elminin də inkişafı sosial-iqtisadi proseslərin idarə olunması metodlarının təkmilləşməsinə xeyli kömək etdi. Bu metodlar idarə edilən obyekt barədə daha məzmunlu, əhəmiyyətli, rasional amillərlə yanaşı, rasional olmayan amillər barədə də məlumatlar toplamaq imkanlarını genişləndirdi. Pedaqogika elminin də inkişafının idarəetmə elmi üçün xüsusi əhəmiyyəti vardır. Bu metodlardan təkcə təhsil müəssisələrinin idarə edilməsində yox, başqa sahələrdəki idarəetmələrdə də uğurla istifadə edilir.

Bütün bu sadalananlar və bir sıra oxşar, başqa imkanlar indi sosial-iqtisadi proseslərin idarə olunması üçün ciddi bir elmi baza yaratmışdır. Bu baza əksər ölkələrdə uğurla istifadə edilir və inkişaf etdirilir. Məhz bu elmi təminat həmin ölkələrin bir çox uğurlar qazanmasında həlledici rol oynayır.

Amma, təəssüflə qeyd etmək lazımdır ki, indi mövcud olan elmi-metodoloji baza heç də təkmil deyildir. Onun təkmilləşməsinə, zənginləşməsinə inkişaf etməsinə böyük bir ehtiyac vardır.

Fikrimizcə, sosial-iqtisadi proseslərin daha uğurla idarə olunması üçün, mövcud metodlardan istifadə ilə yanaşı, eyni zamanda aşağıdakı üç istiqamətdə ciddi elmi araşdırmalar aparılmalıdır: 1) sosial-iqtisadi proseslərin mahiyyətinin həm fəlsəfi, həm də sosioloji, həm də müasir sistem nəzəriyyəsi, riyaziyyat elmi baxımdan daha dərindən öyrənilməsi; 2) bu proseslər barədə daha informativ məlumatların toplanması ilə bağlı elmi metodların inkişaf etdirilməsi və 3) sosial-iqtisadi proseslərin daha dərindən idarə edilə bilməsi üçün yeni elmi yanaşmaları, spesifik xüsusiyyətləri əks etdirən metodların, nəzəriyyələrin, yeni paradiqmanın yaradılması.

Bu sahədəki çatışmazlıqların əsas səbəbləri kimi aşağıdakıları göstərmək olar:

1) Hələlik sosial-iqtisadi prosesin mahiyyəti kateqorial səviyyədə aydınlaşdırılmayıb. İqtisadçılar öyrəndikləri prosesdə, hər hansı bir məsələdə sosial amilləri nəzərə aldıqda, yaxud əksinə, sosioloqlar öz araşdırmalarında iqtisadi amilləri nəzərə aldıqda bir qayda olaraq buna "sosial-iqtisadi" deyirlər. Statistiklər iqtisadi və sosial amillərin məcmusunu "sosial-iqtisadi", onların aid olduğu prosesi isə sosial-iqtisadi proses adlandırırlar. Əslində isə, sosial-iqtisadi proses bu amillərin qarşılıqlı əlaqədə əmələ gətirdiyi sistemin davranışı kimi xarakterizə olunan prosesdir.

2) İndiki vaxtda sosial-iqtisadi prosesi yaranmasında iştirak edən yalnız rasional amillər nəzərə alınır. Amma, istər insanın xarakterini, mahiyyətini, həm də sosialyönlü istənilən sistemin mahiyyətini nəzərə alsaq, qətiyyətlə deyə deyə bilərik ki, istənilən sosial-iqtisadi prosesin yaranmasında rasional amillərlə yanaşı ilk baxışdan müşahidə edilə bilməyən, ölçülə bilməyən bir çox rasional olmayan amillər də iştirak edir. Daha yaxşı metodologiya bu amillərin də imkan daxilində nəzərə alınması üçün yollar göstərməlidir. Bu sahədə astronomiya, biologiya, fizika və s. elmlərdə nümunə vardır. Sosial-iqtisadi proseslərlə bağlı bilgilərdə bu istiqamətdə daha dərinə getməyə ehtiyac vardır. Bu məsələdə istər qədim şərq fəlsəfəsinin, istərsə də orta əsr islam alimlərinin əsərlərindən xeyli faydalanmaq olar.

3) Əldə edilmiş bir çox qiymətli metodoloji, praktik nəticələrə baxmayaraq bir sıra fəlsəfi,

metodoloji yanlışlıqlar üzündən ortada olan elmi araşdırmalarda müəyyən natamamlıqlar var. İstər “sosial”, “sosial-iqtisadi”, “sosial-iqtisadi proses” terminlərinin, istərsə də idarəetmə meyarlarının dəqiqləşməsi, adekvat idarəetmə metodlarının yaradılması və istifadə olunması sahəsində xeyli açıq suallar var. Bir çox hallarda sistemli yanaşma metodları sosial-iqtisadi proseslərin idarə olunması məsələsinə mexaniki olaraq, mahiyyəti lazımınca nəzərə alınmadan tətbiq edilir.

4) İndi bir sıra mütəxəssislər tərəfindən sosial-iqtisadi proseslərin idarə olunması məsələsi siyasi proseslərin idarə olunması məsələsi ilə qarışdırılır. Bu proseslərin idarə olunması üçün eyni metodologiyalar axtarılır. Buna saysız hesabsız misallar göstərmək olar (3 ,4, 5, 6, 7).

Doğrudur, sosial-iqtisadi prosesləri siyasi proseslərdən kənar təsəvvür etmək olmaz. Hər hansı bir ölkədə, sosial sistemdə baş verən sosial-iqtisadi proses orada həyata keçirilən siyasətlə sıx bağlıdır. Məhz həyata keçirilən siyasət hesabına iqtisadi, sosial münasibətlərin, onların qarşılıqlı əlaqələrinin xarakteri formalaşır, üzə çıxır. Bu siyasət sosial-iqtisadi prosesin idarə edilməsinin xarakterinə də təsir edir. Amma öz təbiəti etibarı ilə sosial-iqtisadi proseslər bir başqadır, siyasi proseslər bir başqa. *Sosial-iqtisadi proseslər, cəmiyyətdə sosial amillərlə iqtisadi amillərin qarşılıqlı əlaqədə əmələ gətirdiyi sistemin obyektiv qanunauyğunluqlarla davranışı, fəaliyyəti hesabına baş verir.* Siyasi proseslərdə isə *subyektiv amillər olduqca fəal rol oynayır.*

5) Sosial-iqtisadi proseslər idarə olunduğu zaman tez-tez baş verən metodoloji səhvlərdən biri də başqa ölkələrin, başqa bölgələrin, yaxud başqa dövrlərin idarə etmə metodlarından avtomatik şəkildə - yamsılayaraq idarə etməkdir. Buna hər addımda rast gəlmək olar. Bu ciddi metodoloji bir səhvdir. heç bir zaman kimi isə yamsılamaqla ondan önə keçmək olmaz. Olsa olsa, yamsıladığın adamın həndəvərində ola bilərsən. Yamsılayanda nə hansısa şəxsin, nə də sosial sistemin, sosial-iqtisadi prosesin potensialını üzə çıxarmaq mümkün deyildir. Bu potensial üzə çıxmadan ciddi uğurların qazanılması mümkün deyil. Tarixə diqqət versək, həm qlobal, həm də lokal miqyasda intibah, yüksəliş, tərəqqi məhz o zaman mümkün olur ki, idarəetmə sosial sistemin mahiyyətinə uyğun olaraq, onun xüsusiyyətlərini nəzərə alaraq həyata keçirilir. Özünün inkişaf, tərəqqi modeli, konsepsiyası olmayan hər bir sosial sistemin inkişaf, tərəqqi perspektivləri böyük risk altındadır. Amma, dərhal onu da qeyd etmək lazımdır ki, seçilmiş hər inkişaf modeli də uğurlu ola bilməz. O inkişaf modeli daha uğurlu ola bilər ki, o bir tərəfdən yer üzündə sürətlə getməkdə olan qloballaşma prosesinin tələblərini, digər tərəfdən isə məxsus olduğu sosial sistemin özəlliklərini biri-biri ilə uzlaşdıraraq nəzərə ala bilsin, bundan bəhrələnə bilsin.

Sosial-iqtisadi proseslərin idarə olunması ilə bağlı formalaşan elmi-metodoloji bazanın ən çox çatışmayan cəhətlərindən biri də onun əsasən qərbin pasiol məntiqi və praqmatik münasibətləri əsasında ortaya çıxmasıdır. İndiki elmi-metodoloji baza mənəviyyatla, həssas, rasional olmayan aləm barədə olan amillərə lazımi qədər əhəmiyyət verə bilmir. Ona görə bu metodlar qloballaşmanın sürətlə getdiyi, cəmiyyətin mürəkkəbləşdiyi, xarakterinin dəyişdiyi indiki dövrdə lazımi effekt verə bilmir. Bu metodlar şərq ölkələrində avtomatik olaraq istifadə edildikdə isə daha ciddi problemlər yaranır.

İstənilən bir sosial-iqtisadi prosesin arzu olunan şəkildə idarə olunması üçün vacib olan metodoloji bazanın yaranması indi elmin aktual problemlərindən biridir. Müəllifin təqdim etdiyi, indi beynəlxalq səviyyədə, elm aləmində uğurla yayılmaqda olan ahəng yol elmi də bu sahədəki çatışmazlıqların ortadan götürülməsinə mühüm kömək edə bilər (8, 9, 10).

**Məqalənin aktuallığı.** Sonda bir daha qeyd etmək istərdik ki, təqdim olunan məqalə olduqca aktualdır. Çünki indiki vaxtda günü-gündən mürəkkəbləşən cəmiyyətdə sosial-

iqtisadi proseslərin formalaşmasına, fəaliyyətdə olmasına təsir edən amillərin sayı sürətlə artır. Buna görə də elmi təminat olmadan həmin prosesləri aydın təsəvvür etmək, idarə etmə üçün kompleks təsir vasitələri seçmək qeyri-mümkündür.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondadır ki, burada həm sosial-iqtisadi proseslərin idarə edilməsində elmi təminatın zərurəti ciddi şəkildə əsaslandırılır, həm də bu elmi təminatın təkmilləşməsi zərurəti diqqət mərkəzinə çəkilir. Ortada olan çatışmazlıqlar aydın şəkildə izah edilir. Bu çatışmazlıqların ortadan götürülməsi yolları göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin geniş praktik əhəmiyyəti vardır. Çünki, indiki vaxtda istər hər hansı kiçik yaşayış məntəqəsində, istərsə də böyük meqapolislərdə, istər adi təşkilatlarda, istərsə də hər bir ölkədə - müxtəlif sosial xarakterli sistemlərdə sosial-iqtisadi proseslərin idarə olunmasında elmi təminata, bu idaretmə zamanı mühüm cəhətlərə diqqət verməyə böyük ehtiyac vardır. Təqdim olunan məqalə bu istiqamətdə qərarlar qəbul edilməsinə kömək edə bilər.

## Ədəbiyyat

1. Стиглис Дж. Крутое пике. Америка и новый экономический порядок после глобального кризиса. М.: Эксимо, 2011.

2. Валлерстайн И. После либерализма. М.: УРСС, 2003.

3. Лавриненко В.Н., Путилова Л.М. Исследование социально-экономических и политических процессов М.: Вузовский учебник, 2008.

4. Вертакова Ю.В., Согачева О.В. Исследование социально-экономических и политических процессов, М: КноРус, 2009.

5. Алехин Э. В. Исследование социально-экономических и социально-политических процессов: Учебное пособие. Пенза, 2008.

6. Тавокин Е.П. Исследование социально-экономических и политических процессов, М: Инфра-М Год, 2008.

7. Рой О. М. Исследования социально-эконемических и политических процессов. Учебник для вузов. СПб.: Питер, 2014.

8. Qəşəmoğlu Ə. Sosial idarə etmənin fəlsəfi, sosioloji problemləri. Ahəngyol elminə giriş. Bakı: Səba, 2008.

9. Gashamoglu A. A Fuzzy mathematics & science of ahangyol 12th International Conference on Application of Fuzzy Systems and Soft Computing, ICAFS 2016, 29-30 August 2016, Vienna, Austria

10. Gashamoglu A. A Fuzzy Mathematic Model of Progress in Management of Social Systems through Ahangyol Methods. 13th International Conference on Application of Fuzzy Systems and Soft Computing, ICAFS 2017, 22-23 August 2017, Budapesht, Hunqari.

**А. Гашамоглы**

## Потребность к научной поддержки в управлении социально-экономическими процессами

## Резюме

В статье указано, что в обществе, которое становится все более сложным, существует острая потребность к научной поддержки в управлении социально-экономическими процессами. Предоставляется информация о текущей научной базе. В то же время рассказывается о недостатках в методологической базе в этой области. Даются предложения по устранению этих недостатков.

**A. Qashamoğlu**

## The need for scientific support in the management of socio-economic processes

## Summary

The article shows that in a society that is becoming increasingly complex, there is a strong need for scientific support in the management of socio-economic processes. This field provides information on the current scientific base. At the same time, there is a lack of methodological base in this field. Suggestions are being made to eliminate these deficiencies.

**Redaksiyaya daxil olub:** 28.09.2019